**"2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təklifini nəzərə alaraq, yoluxucu xəstəliklərin qarşısının alınması və onunla mübarizəni təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və digər aidiyyəti dövlət orqanları Tədbirlər Proqramının həyata keçirilməsini təmin etsinlər.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 26 noyabr 2010-cu il
№ 225

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin
2010-cu il 26 noyabr tarixli 225 nömrəli
qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair**

**T Ə D B İ R L Ə R P R O Q R A M I**

## 1. Giriş

Azərbaycan Respublikasında yoluxucu xəstəliklərlə mübarizə işi səhiyyənin prioritet sahələrindən biridir. İmmunoprofilaktikaya dair proqram körpə və uşaq ölümünün və xəstələnmə səviyyəsinin azaldılmasına yönəlmiş ən vacib proqramdır. Dünya miqyasında immunoprofilaktika tədbirləri nəticəsində bir sıra xəstəliklərin yayılma səviyyəsi xeyli azalmış, bir neçəsi isə tam ləğv olunmuşdur.

2006-2010-cu illəri əhatə edən "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı" çərçivəsində respublikanın poliomielitdən azad olması statusunun saxlanılması, qızılca və məxmərəyin eliminasiyası, anadangəlmə məxmərək sindromunun profilaktikası kimi bir sıra kompleks tədbirlər hazırlanaraq həyata keçirilmiş, eləcə də, planlı şəkildə vaksinlərlə idarə olunan digər yoluxucu xəstəliklərə qarşı immunoprofilaktika və nəzarət tədbirləri aparılmışdır. Aparılan tədbirlərin nəticəsidir ki, 2006-cı ildə qızılca xəstəliyi 270 hadisə, məxmərək xəstəliyi 137 hadisə qeydə alındığı halda, 2009-cu ildə bu xəstəliklər tamamilə qeydə

alınmamış, göyöskürək xəstəliyi azaldılmış, tetanus, difteriya xəstəlikləri isə tək-tək hallarda qeydə alınmışdır.

Yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması məqsədi ilə rotavirus, B tipli hemofil infeksiyası tərəfindən törədilən bakterial meningitlər, pnevmokok və meninqokok infeksiyaları üzərində epidemioloji nəzarət tətbiq edilmişdir. Həmçinin yoluxucu və parazitar xəstəliklərin nozologiyaları Xəstəliklərin Beynəlxalq Təsnifatının (XBT) 10-cu baxışına uyğunlaşdırılmış və rotavirus infeksiyası, pnevmokok meningiti və digər infeksiyalar tərəfindən törədilən meningitlər kimi hesabat formasına əlavə edilmişdir.

Yoluxucu xəstəliklər haqqında məlumatların toplanması, ötürülməsi, işlənməsi və bu məlumatların geniş təhlili prosesi təkmilləşdirilmiş, nəzarətin gücləndirilməsinə və operativliyinə imkan verən yoluxucu xəstəliklər üzərində Elektron Müşahidə Sistemi tətbiq edilmişdir.

Respublika səviyyəsində vaksin və digər peyvənd materiallarının ehtiyatı yaradılmış və onların etibarlı saxlanması məqsədi ilə lazımi həcmdə "soyuq zəncir" avadanlığı alınaraq, onların elektrik enerjisi ilə fasiləsiz təchizatı təmin edilmişdir. Vaksinlərin və digər peyvənd materiallarının "soyuq zəncir" sisteminin tələblərinə uyğun qaydada rayonlara daşınması təmin edilmişdir.

Bundan əlavə, "soyuq zəncir" sisteminin tələblərinə uyğun işləmək üçün mütəxəssislər hazırlanmışdır. Vaksinlərin alınmasının planlaşdırılması, vaksin və inyeksiya materialları ehtiyatının tənzimlənməsi sistemi təkmilləşdirilmişdir. Proqram çərçivəsində vaksinlərin vurulması üçün özüməhvolan şprislərin və təhlükəsiz qutuların istifadə edilməsinə keçid tədbirləri başa çatdırılmış və epidemioloji göstərişlərə əsasən əhalinin immunlaşdırılması üçün vaksin fondu yaradılmışdır.

**Azərbaycan Respublikasında profilaktik peyvənd təqvimi**

| Yaşı | Peyvəndlər |
|---|---|
| Doğulduqdan 12 saat ərzində | Hepatit B |
| 4-7-ci gün | BSJ (vərəmə qarşı), OPV (poliomielitə qarşı) |
| 2 aylıqda | Hib- AGDT-HepB (hemofilis influenza, göyöskürək, difteriya, tetanusa qarşı), OPV |
| 3 aylıqda | Hib- AGDT-HepB, OPV |
| 4 aylıqda | Hib- AGDT-HepB, OPV |
| 12 aylıqda | QPM (qızılca, parotit, məxmərəyə qarşı), vitamin A |
| 18 aylıqda | AGDT (göyöskürək, difteriya, tetanusa qarşı), OPV, vitamin A |
| 6 yaşında | QPM, ADT (difteriya, tetanusa qarşı), vitamin A |

## 2. Tədbirlər Proqramının məqsəd və vəzifələri

Tədbirlər Proqramının məqsəd və vəzifələri aşağıdakılardır:

- profilaktik peyvənd təqviminə uyğun olaraq, peyvəndləmənin yüksək səviyyədə saxlanılması;

- immunlaşdırmanın keyfiyyət və təhlükəsizliyinin təmin edilməsi;

- bütün mərhələlərdə yoluxucu xəstəliklər üzərində epidemioloji nəzarətin təmin edilməsi;

- immunoprofilaktika sahəsində kadr hazırlığı;

- məqsədli qruplar və əhali arasında sosial səfərbərliyin aparılması.

## 3. Tədbirlər Proqramının maliyyələşdirilməsi

Tədbirlər Proqramının reallaşması üçün tələb olunan xərclərin maliyyələşdirilməsi müvafiq illər üzrə dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində "Səhiyyə" bölməsi üzrə nəzərdə tutulmuş vəsaitlər dairəsində həyata keçirilir.

## 4. Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər

| Sıra №-si | Tədbirlərin adı | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **1. Profilaktik peyvənd təqviminə uyğun olaraq, peyvəndləmənin yüksək səviyyədə saxlanılması** | | | |
| 1.1. | Məqsədli kontingent üçün profilaktik peyvənd təqviminə uyğun olaraq, vaksinlərin alınması üçün davamlı maliyyələşdirmənin təmin edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 2011 — 2015 |
| 1.2. | Məqsədli kontingent üçün profilaktik peyvənd təqviminə uyğun olaraq, özüməhvolan şprislərin, hälledici şprislərin və immunlaşdırma zamanı əmələ gələn tullantıların zərərsizləşdirilməsi məqsədi ilə təhlükəsiz qutuların alınması üçün maliyyələşdirmənin təmin edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 2011 — 2015 |
| 1.3. | Elektron sağlamlıq kartlarından istifadə etməklə, peyvəndləmənin səviyyəsinin monitorinqinin daima təmin edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | mütəmadi |
| 1.4. | Peyvəndləmə səviyyəsi qənaətbəxş olmayan ərazilərdə monitorinqin keçirilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | tələb olunduqda |
| 1.5. | Ərazilərdə seçmə yolu ilə əhali qrupları | Azərbaycan | 2012 — 2013 |

| | | | |
|---|---|---|---|
| | arasında peyvəndləmənin səviyyəsi üzrə qiymətləndirici sorğunun aparılması | Respublikasının Səhiyyə Nazirliyi | |
| **2. İmmunlaşdırmanın keyfiyyət və təhlükəsizliyinin təmin edilməsi** | | | |
| 2.1. | Respublika səviyyəsində anbarlarda immunobioloji preparatların saxlanılması üçün "soyuq zəncir" sisteminin tələb olunan həcminin təmin edilməsi məqsədi ilə sıradan çıxmış dondurucu avadanlıqların dəyişdirilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2011 |
| 2.2. | Respublika səviyyəsində anbarlarda temperatur rejiminin daima monitorinqinin aparılması üçün onların lazımi texniki avadanlıqla təminatı | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2011 |
| 2.3. | İmmunobioloji preparatların daşınması üçün respublika səviyyəsində əlavə xüsusi avtonəqliyyat vasitəsilə təminat | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2011 |
| 2.4. | Yerli səviyyədə immunobioloji preparatların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə Gəncə şəhəri, Quba, Şəki, Sabirabad və Qazax rayonlarında soyuducu anbarların yenidən qurulması | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2012 — 2014 |
| 2.5. | Yerli tibb məntəqələri səviyyəsində immunlaşdırma tədbirlərini həyata keçirən tibb müəssisələrində sıradan çıxmış "soyuq zəncir" sisteminin avadanlıqlarının dəyişdirilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2011 — 2015 |
| 2.6. | İmmunobioloji preparatların keyfiyyətinin yoxlanılması üçün Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzinin xüsusi laboratoriya avadanlığı ilə təmin edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2012 |
| 2.7. | İmmunlaşdırma tədbirlərini həyata keçirən müalicə-profilaktika müəssisələrinin şok əleyhinə preparatlarla təmin edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | mütəmadi |
| **3. Yoluxucu xəstəliklər üzərində epidemioloji nəzarətin təmin edilməsi** | | | |
| 3.1. | Yoluxucu xəstəliklər üzərində epidemioloji nəzarətin təmin edilməsi üçün respublika səviyyəsində laboratoriya xidmətinin maddi-texniki təminatının gücləndirilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2012 |
| 3.2. | Yerlərdə mütəxəssislər üçün epidemioloji və laboratoriya nəzarətinə aid təlimlərin | Azərbaycan Respublikasının | 2012 — 2013 |

| | | | |
|---|---|---|---|
| | keçirilməsi | Səhiyyə Nazirliyi | |
| **4. İmmunoprofilaktika sahəsində kadr hazırlığı** | | | |
| 4.1. | Ümumdünya Səhiyyə Təşkilatının (ÜST)-in təcrübədə immunlaşdırma təlim kursuna aid metodiki tövsiyələrinin həkimlərin və orta tibb işçilərinin diplomdan sonrakı təlim proqramına mərhələlərlə tətbiqi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2011 — 2014 |
| **5. Əhali arasında sosial səfərbərliyin aparılması** | | | |
| 5.1. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin saytında immunoprofilaktika üzrə veb-resursun yaradılması | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2011 |
| 5.2. | İmmunlaşdırmaya dair populyar ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2011 — 2015 |
| 5.3. | Kütləvi informasiya vasitələri ilə məqsədli qruplar arasında immunlaşdırma proqramının təbliğinə dair məlumatların verilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, kütləvi informasiya vasitələri | mütəmadi |